Yusifqızı Ə. Ata qeyrəti - oğul rəşadəti // Xalq qəzeti. - 2022. - 30 noyabr. - № 261. - S. 10.

Sonra həyatın daha ağır üzü açılıb talelərinə: qaçqınlıq, köçkünlük, yurdsuzluq, evsizlik. Eli-obası yağmalanan Əvəzin bu qaranlığın içində ümidi üzülməyib. Evində aslan kimi üç oğul böyüdüb. İgid şəhid Elmin evin böyük oğlu idi.
Çavuş Mirzəyev Elmin Əvəz oğlu 1995-ci il fevralın 20-də Xocavənd rayonunun Əmrallar kəndində dünyaya gəlmişdi. Ailə 2009-cu ildə köçkünlər üçün Beyləqan rayonunun ərazisində salınmış qəsəbədə evlə təmin olunmuşdu. Elmin təhsilini Sələkətin kənd məktəbində davam etdirmişdi. 2012-ci ildə orta təhsili bitirmiş və bir il sonra hərbi xidmətə getmişdi. Nizam-intizamı ilə seçilən gənc əsgər hərbi hissə rəhbərliyi tərəfindən dəfələrlə diplom və fəxri fərmanlarla təltif edilmişdi, ailəsinə təşəkkür məktubları gəlmişdi. 2015-ci ilin oktyabrında əsgərliyini uğurla başa vurub evlərinə dönmüşdü.
Atası Əvəz kişi deyir ki, Elmin əvvəldən tərbiyəli və istiqanlı uşaq olsa da, əsgərlik həyatı onu çox dəyişdirmiş, yetkinləşdirmişdi.
Bir ara fərdi əməklə məşğul olan Elminə atası təklif edir ki, polis xidmətində çalışsın. Lakin torpağı, vətəni düşmən işğalında olan gənc həyatını hərb sənətinə bağladı. Onun bu istəyinin əsas səbəbi isə Aprel döyüşlərində Azərbaycan oğullarının göstərdiyi qəhrəmanlıq olmuşdu. Odur ki, 2016-cı ilin avqust ayından 702 saylı hərbi hissədə BMP-nin baş tuşlayıcısı vəzifəsində xidmətə başladı. Atası deyir ki, onu sonuncu dəfə müharibədən iki gün əvvəl – 2020-ci il sentyabrın 25-də görüblər, əhval-ruhiyyəsi də əla imiş.
Sentyabrın 27-də Vətən müharibəsi başlananda Elmin də cəbhənin ön sıralarında idi. Düşmənin birinci eşalonunun yarılıb keçilməsində hünər göstərdi. Elmin yaralıları döyüş xəttindən çıxarmağa da kömək edirdi. Yoldaşları danışır ki, şəhid olan uşaqlıq dostu Qara Balakişiyevi döyüş bölgəsindən çıxararkən Elmin deyib: “Rahat yat, Qara. Sənin qisasını mütləq alacam”.
Elminin özündən kiçik qardaşı ilə fərqli cəbhələrdə döyüşlərə eyni gündə qatılmışdı. Orxan o günləri belə xatırlayır: “Mən mina təmizləyən idim. Əvvəlcə əraziyə biz daxil olur, dəhliz açırdıq. Sonra ordumuz həmin dəhlizlə irəliləyirdi. Elə yerdə idim ki, heç kimlə əlaqə yarada bilmirdim. Sentyabrın 29-da yaralıları təxliyə edərkən təsadüfən Elminlə görüşdüm. Füzuli–Alxanlı istiqamətində qanlı döyüşlərdən gəlirdi. Alnı çapılmışdı, döyüş maşını güllələrdən, qəlpələrdən dəlik-deşik idi, içində bir neçə yaralı döyüşçü vardı. Bir-iki kəlmə danışdıq. Çox yorğun idi, dedim ki, bir az qalsın, dincəlsin. Sözümü ağzımda qoydu. Axırıncı görüşümüz oldu. O günü xatırlamaq mənim üçün çox ağırdı...” Həmin gün Elmin atası ilə də danışıb.
Füzulini azad edəndən sonra Elmingil Cəbrayıl uğrunda ağır döyüşlərə giriblər. İmkan tapıb zəng edərək, vaxtilə Cəbrayılın hansı bölgəsində döyüşdüyünü atasından soruşub. Sonra da qürurla döyüş yoldaşlarına deyib ki, buralarda mənim

atamın ayaq izləri var.
Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda gedən döyüşlərdə Elmin vəzifə borcunu şərəflə yerinə yetirdi. Son döyüşə 2 oktyabr 2020-ci il tarixində giriblər. Elmin həmin gün qəhrəmancasına həlak oldu. İgid şəhidimiz çavuş Mirzəyev Elmin Əvəz oğlu "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.
Müharibə başlamazdan xeyli əvvəl sevib-seçdiyi Elnarə xanımla ailə həyatı qurmuşdu Elmin. Alina və Səma adlı iki qız övladı vardı. Özündən sonraya övladlarına Azərbaycan boyda Vətən, bir də şərəfli ad qoydu.
...Əvəz kişi sinəsinə köz kimi basılan oğul dərdini bəzən şeirlərə, sətirlərə tökür. Məqsədi bir hovur təskinlik tapmaqdır. Balasını şerlərdə oxşayır, sevir:

İgid qəhrəman oğlum,
Sən döyüşə atıldın,
Düşmənləri məhv edib,
Bağırlarını yardın.

İgidliyinlə, oğul,
Bizi də sən ucaltdın,
Bu xalqı, bu milləti,
Dünyamıza tanıtdın.